# Balaca kitabların böyük mətləbləri

***Azərbaycan Qadınları Bakı Assosiasiyasının rəhbəri, Respublika "Kitab" Cəmiyyətinin sədri Zərifə xanım Salahovanı oxucularımıza ətraflı şəkildə təqdim etməyə təbii ki, lüzum yoxdur. Çünki ictimai xadim kimi onun fəaliyyətindən kifayət qədər məlumatları var.***

*Zərifə xanım həm də Miniatür kitablar muzeyinin baş mühafizi və təsisçisidir. Onunla söhbətimiz məhz bu barədədir.*

**- Zərifə xanım, öncə muzeyin yaranma tarixindən danışmağınızı xahiş edirik. Bu hansı zərurətdən doğdu?!**

- Muzey 2002-ci il aprelin 23-də, yəni YUNESKO-nun qərarına əsasən bütün dünyada keçirilən Beynəlxalq kitab günündə açılıb. Sahəsi 145 kvadrat metrdir. Onun dünya standartlarına cavab verən 29 vitrinində 48 ölkədən 3565 kitab nümayiş olunur.

Miniatür kitab tapmaqla mən 20 ildir ki, məşğulam. Hazırda kolleksiyamda 5000 nüsxədən artıq kitab var. İnamla deyə bilərəm ki, bu, dünyada ən böyük miniatür kitab muzeyidir...

3 iyun 1995-ci il bizim üçün həlledici gün oldu. Həmin gün M.F.Axundov adına Dövlət kitabxanasında Azərbaycan prezidenti Heydər Əliyevin nitqindən ibarət Moskvada nəfis şəkildə rus, ingilis və Azərbaycan dillərində nəşr olunmuş kitabçaların təqdimetmə mərasimi keçirilirdi. Onların həcmi 38x53 mm ölçüsündə idi. Yeri düşmüşkən deyim ki, bizdə ən kiçik həcmli kitab 2 x 2 mm ölçüsündədir. Yaponiyada nəşr olunub.

Tədbirdən əvvəl mən kitabxananın xarici ədəbiyyat bölməsində 2000 nüsxədən ibarət kitabçaların sərgisini təşkil etdim və çıxış zamanı bildirdim ki, əgər mənə müvafiq yer ayrılsaydı orada miniatür kitablar muzeyi açardım.

Mərasimdə prezident Heydər Əliyev də iştirak edirdi. Sərgiyə baxarkən heyrətini gizlədə bilmədi: "Bütün bu kitablar sənindir?!"

- Bu, kolleksiyamda olan kitabçaların yalnız bir hissəsidir, - dedim. O zaman mənim bu cür 4000 nüsxə kitabım vardı.

Bir neçə aydan sonra Bakı şəhər İcra Hakimiyyətinə mənə muzey açmaq işində müvafiq kömək göstərilməsi haqqında məktub yazdım. Çox keçmədi ki, arxitektor mənə zəng etdi və biz başdan-başa İçərişəhəri gəzəsi, XI-XII əsrin qədim şəhər tikililərinə, XV əsr yadigarı Şirvanşahlar sarayına baş çəkəsi olduq. Harada olduqsa "burada inşaat işləri gedəcək" cavabı aldıq. Ümidimi üzdüyüm bir məqamda saraya yaxın bir boş yer tapdıq. Nə vaxtsa burada balaca ev tikilmişdi. O tamam dağılmış, sahə boş qalmışdı. Sahəsi böyük olmasa da (13,6x13,8 metr) sevincimin həddi-hüdudu yox idi.



O yeri tapmaq nə qədər çətin oldusa sponsor tapmaq bir o qədər müşkülə çevrildi.

Mənə vaxt verildi: "2 il müddətinə işi başa çatdırmasan sahə əlindən alınacaq..."

Çıxılmaz vəziyyətdə qaldığımı görən qardaşım (SSRİ xalq rəssamı, Sosialist Əməyi Qəhrəmanı, Rusiya Rəssamlıq Akademiyasının akademiki Tahir Salahov) binanın özülü üçün pul verdi: "Əsas işi başlamaqdır... Sonra hər şey qaydasına düşəcək..."

Sonra biz bankdan kredit götürdük. Üçmərtəbəli bina tikdik. Hazırda 2 və 3-cü mərtəbələri icarəyə vermişik. Bu vəsaitlə borclarımızı ödəyir, muzeyi saxlayırıq.

**- Muzeyə giriş pulludurmu?**

- Yox, pulsuzdur. Amma çox təəssüf ki, indi kitaba maraq əvvəlki kimi deyil. Aşağı düşüb. Muzeyə gələnlərin əksəriyyəti tələbələrdir. Bundan başqa buranı xarici qonaqlar da ziyarət edir.

**- Kitablarınızın əksəriyyəti yəqin ki, Azərbaycan klassiklərinin əsərləridir?!**

- Təbii ki, bu cür kitablar çoxluq təşkil edir. Kitabsevərlər cəmiyyətinə rəhbərliyim dövründə mən klassiklərimizin, şair və yazıçılarımızın 60-dan artıq kitabçalarının nəşrinə nail olmuşam. Ancaq başqa ölkələrə məxsus kitablar da az deyil. Burada MDB-yə daxil olan dövlətlərin, eləcə də Almaniya, ABŞ, Fransa, İngiltərə, İtaliya, İsveçrə, İran, Türkiyə, Səudiyyə Ərəbistanı və s. ölkələrin hər birinin öz guşəsi var.

**- Bu kitabları necə nəşr etdirirsiniz? Maliyyə imkanlarınız böyükdürmü?**

- Əlbəttə yox! Sponsor tapırıq. Bu işə dövlətdən vəsait ayrılmır. Odur ki, onları 500 nüsxədən artıq nəşr etməyə imkanımız çatmır.

**- Fondunuzu necə zənginləşdirirsiniz?**

- Bunu əsasən iki yolla həll edirik. Birincisi, getdiyim ölkələrdə, gəzdiyim şəhərlərdə ən çox baş çəkdiyim kitab mağazaları olur. Əlidolu qayıtmasam rahatlıq tapmaram. İkincisi isə bu zənginləşməni hədiyyələr vasitəsilə həyata keçiririk. Misal üçün, bu kitabçanı bizə şahmat üzrə dünya çempionu Nana Aleksandriya bağışlayıb...

**- Muzeyinizə gələnlərdən eləsi olubmu ki, bu kitabları oxumaq istəsin? Bunun üçün şərait yaradıbsınızmı?!**

- 2003-cü ilin yayında Oksford universiteti nəzdindəki 6 muzeyin əlaqələndiricisi Bakıya uçdu və respublikamızın əksər muzeylərinə baş çəkdi. Maraqlıdır ki, ən çox xoşuna gələn məhz bizim muzey oldu. Həm də belə məsləhət gördü ki, balaca bir stol qoyaq, onun üzərinə kitabçalarla bərabər böyüdücü şüşə və mikraskop qoymağı da unutmayaq ki, buraya gələnlər kitablarla daha yaxından tanış olsunlar. Biz mütləq bunu edəcək və vitrinlərin sayını çoxaltmağa çalışacağıq...

**E.HƏSƏNQIZI**